**Misir mətbuatı COP29-un Azərbaycan iqtisadiyyatına töhfələrindən yazıb**

Misirin "elalmelarby.com" saytı COP29-un Azərbaycan iqtisadiyyatına töhfələrindən yazıb.

AZƏRTAC xəbər verir ki, sayt Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin "COP29 Azərbaycan iqtisadiyyatına hansı töhfələri verəcək?" adlı məqaləsini dərc edib.

Komitə sədrinin yazısında ekoloji dayanıqlıqdan və "yaşıl artım"dan, Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərindən, eləcə də rəqabətədavamlı iqtisadiyyat, sosial ədalət və innovasiyalardan bəhs edilir. Bildirilir ki, müasir texnologiyaların və insan kapitalının inkişafı, innovativ təşəbbüslərin dəstəklənməsi dövrümüzün diktə etdiyi reallıqlardır. Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, abadlaşdırılması, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışı və oradakı ətraf mühitin sağlamlaşdırılması üçün bu ilin payızında Bakıda keçiriləcək COP29 əla fürsətdir. Hər şeydən öncə COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, BMT kimi ali qurumun Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır. Həmçinin konfransın Bakıda təşkili BMT səviyyəsində ölkəmizdə siyasi və iqtisadi sabitliyin qəbulundan xəbər verir.

Müəllifin sözlərinə görə, COP29-un əsas üstünlüklərindən biri də odur ki, bu konfrans Azərbaycanın ekoloji siyasətlərinin qabaqcıl beynəlxalq təcrübələrə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasına, geniş iqtisadi inkişaf üçün maliyyə dəstəyinin təmin edilməsinə töhfədir.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizdə yaşıl enerji növlərinin yaradılmasına, dünya bazarına nəqlinə imkan verir. Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasıdır. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir.

Məqalədə bildirilib ki, 2020-ci ildə 44 günlük müharibədən dərhal sonra Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru, Naxçıvanı "yaşıl enerji bölgəsi" adlandırdı. İşğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səviyyəsi dərhal öyrənildi. Bu ehtiyatlardan istifadə Azərbaycanı "yaşıl enerji" istehsalçısına çevirəcək. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir. Yaxın illərdə burada hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq ki, bu da yaşıl enerjiyə keçid prosesinə böyük töhfədir.

Müəllifin sözlərinə görə, bu il noyabrın 11-24-də Bakıda keçiriləcək COP29 tədbirlərində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərin iştirakı gözlənilir. Konfransla bağlı turizm və logistika sahəsində yüzlərlə yeni peşəkar mütəxəssis hazırlanacaq, turizm xidmətlərinin keyfiyyəti artırılacaq.

Məqalədə vurğulanır ki, COP29 Azərbaycanın potensialının və iqtisadi imkanlarının daha yaxından təqdim edilməsinə şərait yaradacaq. Beynəlxalq arenada Azərbaycanın nüfuzunun daha da güclənməsinə müsbət təsir edəcək konfrans onun iqtisadi və siyasi gücünü daha da artıracaq.

**AZƏRTAC**
**2024, 22 may**